**Azərbaycan Respublikası Prezidentinin imzaladığı fərman və sərəncamların, təsdiq edilmiş dövlət proqramlarının, milli fəaliyyət planlarının və digər tapşırıqların icra vəziyyəti nəzarətdə saxlanılmasının təmin edilməsi məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında yaradılmış "Dövlət Nəzarəti İnformasiya Sistemi" üzərindən verilmiş tapşırıqların icra vəziyyəti barədə**

# ARAYIŞ

Azərbaycan Respublikası Prezidentinin 30 yanvar 2021-ci il tarixli 1275 saylı Fərəmanı ilə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında yaradılmış Azərbaycan Respublikası Prezidentinin fərman, sərəncam və tapşırıqlarının icra vəziyyətinə nəzarətin elektron qaydada həyata keçirilməsi və yerli icra hakimiyyəti orqanlarının fəaliyyətinin əsas səmərəlilik göstəriciləri əsasında qiymətləndirilməsini təmin edən "Dövlət Nəzarəti İnformasiya Sistemi"nə (bundan sonra DNİS) məlumatların tələb olunan meyarlara və icra intizamına uyğun yerləşdirilməsi Binəqədi Rayon İcra Hakimiyyətinin İnformasiya təminatı və təhlil sektoru tərəfindən təmin olunur. Eyni zamanda, tapşırıqların hesabatlılıq dövrü, yeni daxil olan məlumatların icrasının təmin edilməsi ilə əlaqədar məlumatların RİH başçısı Aparatının aidiyyəti üzrə struktur bölmələrinə yönləndirilməsi mütəmadi olaraq nəzarətdə saxlanılır. Belə ki, İnformasiya təminatı və təhlil sektoru tapşırıqların icrası məqsədi ilə müvafiq dövrlər üzrə RİH-in aidiyyəti struktur bölmələri tərəfindən təqdim edilmiş məlumatların sistemə yerləşdirilməsini təmin edir.

Məlum fərmana əsasən yaradılmış yeni elektron sistem vasitəsi ilə bütün sahələr üzrə imzalanmış fərman və sərəncamlar, o cümlədən verilmiş digər tapşırıqlar üzrə hesabatlılığın verilməsi sadələşdirilmişdir. Eyni zamanda, tapşırıqların vaxtında və tam şəkildə icrası, icrası gecikən tapşırıqlar üzrə problemlərin müəyyən edilərək müvafiq tədbirlərin görülməsi və onların aradan qaldırılması istiqamətində zəruri təkliflərin verilməsi, nəticə etibarilə yerinə yetirilən işlərin əsaslı qiymətləndirilməsi imkanı yaradılmışdır.

DNİS tərəfindən tapşırıqların icrasının qiymətləndirilməsi metodologiyasına əsasən tapşırıqların qiymətləndirilməsi zamanı aşağıdakı meyarlar əsas götürülür:

- icra intizamı gözlənilməklə tələb olunan vaxtda *(icra müddəti olan, İcra müddəti olmayan və mütəmadi)* hesabatın sistemə daxil edilməsi;
- tapşırıq üzrə görülmüş işlərə dair əsaslandırılmış arayışlar və müvafiq təsdiqedici sənədlər *(məktub və digər yazışmalar, keçirilmiş tədbirlərə dair fotoşəkilllər, videoçarxlar, RİH-in rəsmi internet resursunda və sosial şəbəkələrdə etdiyi paylaşımlar, məlumatların KİV-də işıqlandırılması; maarifləndirici və təbliğat xarakterli paylaşımlar və s.);*
- hesabat və təsdiqedici sənədlərin qiymətləndirmə dövrü üzrə tapşırığın mahiyyətinə uyğun olması.

DNİS sistemi 2021-ci ilin II yarısından faktiki fəaliyyətə başladığı vaxtdan hesabat dövrünədək elektron sistemə Binəqədi RİH-in əsas və digər icraçı statusunda müəyyən olunduğu ümumilikdə 59 adda fərman və sərəncam 251 tapşırıq yüklənmişdir. Onlardan 23 tapşırığın icrası ilə bağlı "qiymətləndirmir" statusu seçilmişdir. Qalan 228 tapşırığın cari dövrə olan icra vəziyyətinin qiymətləndirilmə statusu aşağıdakı kimidir:




Göründüyü kimi, Binəqədi Rayon İcra Hakimiyyəti tərəfindən icrası təmin edilmiş **142 tapşırığın** qiymətləndirilməsi müsbət səciyyələndirilmişdir.

**77 tapşırığın** icra vəziyyəti "Qismən icra edilmişdir" və "Cari dövr üzrə qismən icra edilmişdir" statusunda qiymətləndirilmişdir. Bunlardan **15 tapşırıq** üzrə RİH əsas icraçı, **62 tapşırıq** üzrə digər icraçı statusunda müəyyən edilmişdir. DNİS sisteminə ilk vaxtlarda məlumatların daxil edilməsi zamanı bir sıra hallarda təsdiqedici sənədlərin yüklənməməsi səbəbindən, tapşırıq "qismən icra edilmişdir" kimi qiymətləndirilmişdir. Bundan başqa, aidiyyəti mərkəzi icra hakimiyyəti orqanlarına RİH tərəfindən hazırlanmış təkliflər və zəruri köməkliklərin göstərilməsi ilə bağlı müraciətlərə həmin qurumlarda baxıldığı üçün tapşırıqların tam icrası mümkün olmamışdır.

**3 tapşırıqla** bağlı "İcra edilməmişdir" və "Cari dövr üzrə icra edilməmişdir" statuslarında qiymətləndirilmə müəyyən edilmişdir.

## *İcra edilməmişdir (2 tapşırıq)*:

1. "1941-1945-ci illər müharibəsində qələbənin 70 illik yubileyinə hazırlıq və yubileyin qeyd olunması üzrə Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında – məsələ ilə bağlı aidiyyəti mərkəzi icra hakimiyyəti qarşısında – *23. "1941-1945-ci illər müharibəsində qələbənin 70 illik yubileyinə hazırlıq və yubileyin qeyd olunması üzrə Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında*

**RİH tərəfindən daxil edilmiş məlumat:** Binəqədi rayonu Binəqədi qəsəbəsi Xocəsən qəsəbəsində 1941-1945-ci illərdə Böyük Vətən Müharibəsi iştirakçılarının xatirəsinin əbədiləşdirilməsi üçün abidə kompleksləri uşaldılmışdır. Bundan başqa, 8-ci mikrorayon İ.Dadaşov küçəsində Böyük Vətən Müharibəsi iştirakçısı, Sovet İttifaqı Qəhrəmanı Həbibulla Hüseynovun xatirəsinə abidə ucaldılmışdır.

Tapşırığın icrasının təmin edilməsi məqsədi ilə RİH tərəfindən aidiyyəti üzrə Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinə məktubla müraciət olunmuşdur *(məktub: 10.03.2023; № 5-10/2-475/2023).*

**DNİS qeyd:** 1.Qiymətləndirilmə nəticəyönümlü aparıldığına və tapşırığın icra müddəti (2015) yekunlaşdığına görə tapşırıq **"icra edilməmişdir"** kimi qiymətləndirilmişdir. 2. Müvafiq qurumun cavab məktubu əlavə edilsin.

2. "Daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası, qorunması, tarix və mədəniyyət qoruqlarının fəaliyyətinin təkmilləşdirilməsi və inkişafına dair 2014-2020-ci illər üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında – *195. Tarix və mədəniyyət qoruqlarında və turizm məqsədləri üçün istifadə edilən daşınmaz tarix və mədəniyyət abidələrində turizm infrastrukturunun yaradılması və inkişafı*

**RİH tərəfindən daxil edilmiş məlumat:** Binəqədi rayon ərazisində yerləşən tarixi və mədəni abidələrin siyahsını və mühafizə zonalarının müəyyən edilməsi ilə bağlı aidiyyəti qurumlarla qarşılıqlı əməkdaşlıq əsasında pasportlaşdırılmış abidələr haqqında məlumatlar dəqiqləşdirilmişdir.

Aparılan monitirinqlər nəticəsində aşkar edilmiş problemlər barədə aidiyyəti üzrə müraciətlər edilərərk, məsələnin həlli nəzarətə götürülmüşdür. Belə ki, Binəqədi qəsəbəsində yerləşən memarlıq abdisəinin (hamam) bərpa təmir işlərinin aparılması ilə bağlı Mədəniyyət Nazirliyinə müraciət edilmişdir.

Bununla yanaşı, rayonda turizm məqsədləri üçün istifadə edilən daşınmaz tarix və mədəniyyət abidələrində turizm infrastrukturunun yaradılması və inkişafı ilə bağlı aidiyyəti qurumlara ünvanlanmış müraciətlə bağlı görülmüş tədbirlərlə bağlı əlavə məlumatlar təqdim ediləcəkdir.

**DNİS qeyd:** Tapşırığın icra müddəti ərzində onun icrası ilə bağlı konkret hər hansı bir işin görülməsi barədə məlumat yoxdur.

## *Cari dövr üzrə icra edilməmişdir (1 tapşırıq):*

1. Azərbaycan Respublikası regionlarının 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı – *7.1.57. Azərbaycan Respublikasının milli parklarında ekoturizm infrastrukturunun yaradılması, yerli əhalinin turizmin inkişafı tədbirlərinə cəlb edilməsi*

**RİH tərəfindən daxil edilmiş məlumat:** Tapşırığın icrası istiqamətində müvafiq tədbirlərin həyata keçirilməsinə köməklik göstərilməsi ilə bağlı Binəqədi RİH tərəfindən aidiyyəti üzrə əsas icraçı qurumlara - Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Dövlət Turizm Agentliyinə rəsmi müraciət olunmuşdur.
**RİH: tam və vaxtında icra olunmamanın səbəbi:** Layihəyə (təkliflərə) digər icraçı qurumda baxılır.

Hesabat dövrünə kimi sistemə Binəqədi RİH **əsas icraçı** qismində müəyyən edildiyi 24 adda fərman üzrə ***36 tapşırıq*** və 14 adda sərəncam üzrə ***30 tapşırıq*** yüklənmişdir. İcra intizamına uyğun olaraq həmin tapşırıqların icra vəziyyəti aşağıdakı kimidir:

| **Binəqədi RİH qurum üzrə əsas icraçı qismində** | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| **Sıra №-si** | **Tapşırıq üzrə hesabatların icra vəziyyəti** | **Yekun:** | **İcra intizamına uyğun olaraq tapşırıqların fərman və sərəncamlar üzrə müddətlərə görə icra vəziyyəti, onlardan:** | | | | | | | |
| | | | **Cəmi:** | **FƏRMAN - 24** | | | **Cəmi:** | **SƏRƏNCAM - 14** | | |
| | | | | İcra müddəti olan: | İcra müddəti olmayan | Mütəmadi: | | İcra müddəti olan: | İcra müddəti olmayan | Mütəmadi: |
| **1** | **2** | **3** | **4** | **5** | **6** | **7** | **8** | **9** | **10** | **11** |
| **1.** | **Qurum üzrə tapşırıqların orta tamamlanma faizi:** | **85,29%** | **77,08%** | **80%** | **78,12%** | **66,67%** | **92,52%** | **96,67%** | **87,5%** | **87,5%** |
| **2.** | **İcra vəziyyətləri üzrə cəm,** *onlardan:* | **66** | **36** | **7** | **25** | **4** | **30** | **17** | **5** | **8** |
| **2.1.** | ***Qiymətləndirilmir*** | **12** | **9** | **2** | **6** | **1** | **3** | **2** | **1** | **0** |
| **3.** | **İcra vəziyyətləri üzrə qiymətləndirilməsi aparılan tapşırıqlar,** *onlardan:* | **54** | **27** | **5** | **19** | **3** | **27** | **15** | **4** | **8** |
| **3.1.** | ***İcra edilmişdir*** | **12 (22,2%)** | **6 (22,2%)** | 2 | 4 | 0 | **6 (22,2%)** | 5 | 1 | 0 |
| **3.2.** | ***Cari dövr üzrə icra edilmi*** | **24 (44,4%)** | **7 (26,0%)** | 1 | 5 | 1 | **17 (63,0%)** | 9 | 2 | 6 |
| **3.3.** | ***Qismən icra edilmişdir*** | **2 (3,7%)** | **1 (3,7%)** | 1 | 0 | 0 | **1 (3,7%)** | 0 | 0 | 1 |
| **3.4.** | ***Cari dövr üzrə qismən icra edilmişdir*** | **13 (24,1%)** | **10 (37,0%)** | 1 | 7 | 2 | **3 (11,1%)** | 1 | 1 | 1 |
| **3.5.** | ***İcra edilməmişdir*** | **0** | **0** | 0 | 0 | 0 | **0** | 0 | 0 | 0 |
| **3.6.** | ***Cari dövr üzrə icra edilməmişdir*** | **0** | **0** | 0 | 0 | 0 | **0** | 0 | 0 | 0 |
| **3.7.** | ***İcraya verilib*** | **3 (5,6%)** | **3 (11,1%)** | 0 | 3 | 0 | **0** | 0 | 0 | 0 |
| **3.8.** | ***Qiymətləndirilmə gözləyi*** | **0** | **0** | 0 | 0 | 0 | **0** | 0 | 0 | 0 |
| **3.9.** | ***Məlumat təqdim edilməyi*** | **0** | **0** | 0 | 0 | 0 | **0** | 0 | 0 | 0 |

Cədvələ əsasən RİH-in əsas icraçısı olduğu tapşırıqların icra vəziyyəti müsbət səciyyələndirilir. Belə ki, DNİS tərəfindən qiymətləndirilməsi aparılmış **54 tapşırıqdan** həllini tapmış **36 (*66,6 %* ) tapşırığın** icra vəziyyəti müsbət qiymətləndirilmişdir (*"İcra edilmişdir"* və *"Cari dövr üzrə icra edilmişdir"*). **15 (27,8%) tapşırığın** icra vəziyyəti *"Qismən icra edilmişdir"* və *"Cari dövr üzrə qismən icra edilmişdir"* statusunda qiymətləndirilmiş, qalan **3 (5,6%) tapşırıq** icraya verilmişdir.



Hesabat dövrünə kimi sistemə Binəqədi RİH **digər icraçı** qismində müəyyən edildiyi, Azərbaycan Respublikası Prezidentinin təsdiqlədiyi müvafiq fərmanlara əsasən ***35 tapşırıq*** və sərəncamlara əsasən ***150 tapşırıq,*** ümumilikdə, ***185 tapşırıq*** yüklənmişdir. İcra intizamına uyğun olaraq həmin tapşırıqların müvafiq sənədlər üzrə icra müddətlərinə əsasən icra vəziyyəti aşağıdakı kimidir:

| **Binəqədi RİH qurum üzrə digər icraçı qismində** | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| **Sıra №-si** | **Tapşırıq üzrə hesabatların icra vəziyyəti** | **Yekun:** | **İcra intizamına uyğun olaraq tapşırıqların fərman və sərəncamlar üzrə müddətlərə görə icra vəziyyəti, *onlardan:*** | | | | | | | |
| | | | **Cəmi:** | **FƏRMAN - 1** | | | **Cəmi:** | **SƏRƏNCAM - 30** | | |
| | | | | İcra müddəti olan: | İcra müddəti olmayan | Mütəmadi: | | İcra müddəti olan: | İcra müddəti olmayan | Mütəmadi: |
| **1** | **2** | **3** | **4** | **5** | **6** | **7** | **8** | **9** | **10** | **11** |
| **1.** | **Qurum üzrə tapşırıqların orta tamamlanma faizi:** | **79,65%** | **88,71%** | **88,71%** | **0** | **0** | **77,66%** | **73,18** | **0** | **93,55%** |
| **2.** | **İcra vəziyyətləri üzrə cəm,** *onlardan:* | **185** | **35** | **35** | **0** | **0** | **150** | **118** | **0** | **32** |
| **2.1.** | ***Qiymətləndirilmir*** | **11** | **4** | **4** | **0** | **0** | **7** | **7** | **0** | **0** |
| **3.** | **İcra vəziyyətləri üzrə qiymətləndirilməsi aparılan tapşırıqlar,** *onlardan:* | **174** | **31** | **31** | **0** | **0** | **143** | **111** | **0** | **32** |
| **3.1.** | ***İcra edilmişdir*** | **32 (18,4%)** | **2 (6,5%)** | 2 | 0 | 0 | **30 (21,0%)** | 21 | 0 | 9 |
| **3.2.** | ***Cari dövr üzrə icra edilmişdir*** | **74 (42,5%)** | **23 (74,2%)** | 23 | 0 | 0 | **51 (35,6%)** | 33 | 0 | 18 |
| **3.3.** | ***Qismən icra edilmişdir*** | **29 (16,7%)** | **0** | 0 | 0 | 0 | **29 (20.3%)** | 29 | 0 | 0 |
| **3.4.** | ***Cari dövr üzrə qismən icra edilmişdir*** | **33 (19,0%)** | **5 (16,1%)** | 5 | 0 | 0 | **28 (19,6%)** | 24 | 0 | 4 |
| **3.5.** | ***İcra edilməmişdir*** | **2 (1,1%)** | **0** | 0 | 0 | 0 | **2 (1,4%)** | 2 | 0 | 0 |
| **3.6.** | ***Cari dövr üzrə icra edilməmiş*** | **1 (0,6%)** | **1 (3,2%)** | 1 | 0 | 0 | **0** | 0 | 0 | 0 |
| **3.7.** | ***İcraya verilib*** | **2 (1,1%)** | **0** | 0 | 0 | 0 | **2 (1,4%)** | 1 | 0 | 1 |
| **3.8.** | ***Qiymətləndirilmə gözləyir*** | **0** | **0** | 0 | 0 | 0 | **0** | 0 | 0 | 0 |
| **3.9.** | ***Məlumat təqdim edilməyib*** | **1 (0,6%)** | **0** | 0 | 0 | 0 | **1 (0.7%)** | 1 | 0 | 0 |

Cədvəldən göründüyü kimi, RİH-in digər icraçı qismində göstərildiyi məsələlər üzrə ümumi 185 tapşırıqdan **11 tapşırıq** qiymətləndirilməmişdir. Qalan **174 tapşırıq** üzrə həllini tapmış **106 (60,9%)** tapşırığın icra vəziyyəti müsbət qiymətləndirilmişdir (*"İcra edilmişdir"* və *"Cari dövr üzrə icra edilmişdir"*).

Hesabat dövrünə dair tapşırıqla bağlı məlumatlar daxil edilsə də, müvafiq təsdiqləyici sənədlərin sistemə yerləşdirilməməsi; təqdim edilən sənədlərin tapşırığın mahiyyətinə tam uyğun olmaması; aidiyyəti əsas icraçı qurumlar tərəfindən müəyyən işlərin başa çatdırılmaması və s. səbəblərdən **62 (35,6%)** tapşırığın icra vəziyyəti *"Qismən icra edilmişdir"* və *"Cari dövr üzrə qismən icra edilmişdir"* statusunda qiymətləndirilmişdir.



Binəqədi RİH tərəfindən qurum üzrə **<u>əsas icraçı</u>** qismində olduğu müvafiq fərman və sərəncamlarla təsdiq edilmiş Dövlət prtoqramları, Milli fəaliyyət proqramları, tədbirlər planı, strategiya üzrə tapşırıqların (hesabat dövrünə kimi sistemə fərmanlara əsasən ***1 tapşırıq*** və sərəncamlara əsasən ***20 tapşırıq,*** ümumilikdə ***21 tapşırıq*** yüklənmişdir) icra vəziyyəti:

| **Binəqədi RİH qurum üzrə əsas icraçı qismində** | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| **Sıra №-si** | **Hesabatların icra vəziyyəti** | **Yekun:** | **Fərman və sərəncamla təsdiq edilmişdir, *onlardan:*** | | | | | |
| | | | **DP** | | | **MFP** | **TP** | **Strategiya** |
| | | | **Cəmi:** | **Fərman** | **Sərəncam:** | **Sərəncam:** | | |
| **1** | **2** | **3** | **6** | **7** | **8** | **9** | **10** | **11** |
| **1.** | ***Qurum*** **üzrə tapşırıqların orta tamamlanma faizi (%)** | **88,2%** | **100%** | ***100%*** | ***100%*** | **94,44%** | **75%** | **83,33%** |
| **2.** | **İcra vəziyyətləri üzrə cəm,** *onlardan:* | **21** | **6** | ***1*** | ***5*** | **10** | **2** | **3** |
| **2.1.** | ***Qiymətləndirilmir*** | **2** | **1** | ***0*** | ***1*** | **1** | **0** | **0** |
| **3.** | **İcra vəziyyətləri üzrə qiymətləndirilməsi aparılan tapşırıqlar,** *onlardan:* | **19** | **5** | ***1*** | ***4*** | **9** | **2** | **3** |
| **3.1.** | ***İcra edilmişdir*** | **5 (26,3%)** | **0** | ***0*** | ***0*** | **5** | **0** | **0** |
| **3.2.** | ***Cari dövr üzrə icra edilmişdir*** | **11 (57,9%)** | **5** | ***1*** | ***4*** | **3** | **1** | **2** |
| **3.3.** | ***Qismən icra edilmişdir*** | **1 (5,3%)** | **0** | ***0*** | ***0*** | **0** | **0** | **1** |
| **3.4.** | ***Cari dövr üzrə qismən icra edilmi*** | **2 (10,5%)** | **0** | ***0*** | ***0*** | **1** | **1** | **0** |
| **3.5.** | ***İcra edilməmişdir*** | **0** | **0** | ***0*** | ***0*** | **0** | **0** | **0** |
| **3.6.** | ***Cari dövr üzrə icra edilməmiş*** | **0** | **0** | ***0*** | ***0*** | **0** | **0** | **0** |
| **3.7.** | ***İcraya verilib*** | **0** | **0** | ***0*** | ***0*** | **0** | **0** | **0** |
| **3.8.** | ***Qiymətləndirilmə gözləyir*** | **0** | **0** | ***0*** | ***0*** | **0** | **0** | **0** |
| **3.9.** | ***Məlumat təqdim edilməyib*** | **0** | **0** | ***0*** | ***0*** | **0** | **0** | **0** |

Cədvələ əsasən RİH-in əsas icraçısı olduğu tapşırıqların icra vəziyyəti müsbət səciyyələndirilir. Belə ki, DNİS tərəfindən qiymətləndirilməsi aparılmış **19 tapşırıqdan** həllini tapmış **16 (*84,2 %* ) tapşırığın** icra vəziyyəti müsbət qiymətləndirilmişdir (*"İcra edilmişdir"* və *"Cari dövr üzrə icra edilmişdir"*). Qalan **3 (15,8%) tapşırığın** icra vəziyyəti *"Qismən icra edilmişdir"* və *"Cari dövr üzrə qismən icra edilmişdir"* statusunda qiymətləndirilmişdir.



Binəqədi RİH tərəfindən qurum üzrə **digər icraçı** qismində olduğu müvafiq fərman və sərəncamlarla təsdiq edilmiş Dövlət prtoqramları, Milli fəaliyyət proqramları, tədbirlər planı, strategiya üzrə tapşırıqların (hesabat dövrünə kimi sistemə fərmanlara əsasən ***35 tapşırıq*** və sərəncamlara əsasən ***142 tapşırıq,*** ümumilikdə ***177 tapşırıq*** yüklənmişdir) icra intizamına uyğun olaraq icra vəziyyəti aşağıdakı cədvəldə qeyd olunmuş göstəricilərə əsasən müsbət dinamika ilə səciyyələnir.

| **Binəqədi RİH qurum üzrə digər icraçı qismində** | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| **Sıra** | **Hesabatların icra vəziyyəti** | **Yekun:** | **Fərman və sərəncamla təsdiq edilmişdir, *onlardan:*** | | | | | |
| | | | **DP** | | | **MFP** | **TP** | **Strategiya** |
| | | | **Cəmi:** | **Fərman** | **Sərəncam:** | **Sərəncam:** | | |
| **1** | **2** | **3** | **6** | **7** | **8** | **9** | **10** | **11** |
| **1.** | ***Qurum* üzrə tapşırıqların orta tamamlanma faizi (%)** | **84,56%** | **75%** | ***88,71%*** | ***68,03%*** | **87,5%** | **83,33%** | **92,42%** |
| **2.** | **İcra vəziyyətləri üzrə cəm,** *onlardan:* | **177** | **100** | ***35*** | ***65*** | **31** | **12** | **34** |
| **2.1.** | ***Qiymətləndirilmir*** | **10** | **8** | ***4*** | ***4*** | **1** | **0** | **1** |
| **3.** | **İcra vəziyyətləri üzrə qiymətləndirilməsi aparılan tapşırıqlar,** *onlardan:* | **167** | **92** | ***31*** | ***61*** | **30** | **12** | **33** |
| **3.1.** | ***İcra edilmişdir*** | **31 (18,5%)** | **16** | ***2*** | ***14*** | **5** | **4** | **6** |
| **3.2.** | ***Cari dövr üzrə icra edilmişdir*** | **74 (44,3%)** | **31** | ***23*** | ***8*** | **16** | **4** | **23** |
| **3.3.** | ***Qismən icra edilmişdir*** | **25 (15,0%)** | **20** | ***0*** | ***20*** | **2** | **2** | **1** |
| **3.4.** | ***Cari dövr üzrə qismən icra edilmişdir*** | **33 (19,8%)** | **24** | ***5*** | ***19*** | **5** | **2** | **2** |
| **3.5.** | ***İcra edilməmişdir*** | **0** | **0** | ***0*** | ***0*** | **0** | **0** | **0** |
| **3.6.** | ***Cari dövr üzrə icra edilməmişdi*** | **1 (0,6%)** | **1** | ***1*** | ***0*** | **0** | **0** | **0** |
| **3.7.** | ***İcraya verilib*** | **2 (1.2%)** | **0** | ***0*** | ***0*** | **2** | **0** | **0** |
| **3.8.** | ***Qiymətləndirilmə gözləyir*** | **0** | **0** | ***0*** | ***0*** | **0** | **0** | **0** |
| **3.9.** | ***Məlumat təqdim edilməyib*** | **1 (0,6%)** | **0** | ***0*** | ***0*** | **0** | **0** | **1** |

Cədvəldən göründüyü kimi, müvafiq fərman və sərəncamlarla təsdiq edilmiş Dövlət prtoqramları, Milli fəaliyyət proqramları, tədbirlər planı, strategiya üzrə Binəqədi **RİH-in digər icraçı qismində** göstərildiyi ümumi **177 tapşırıqdan 10 tapşırıq** qiymətləndirilməmişdir. Qalan **167 tapşırıq** üzrə həllini tapmış **105 (62,8%)** tapşırığın icra vəziyyəti müsbət qiymətləndirilmişdir (*"İcra edilmişdir"* və *"Cari dövr üzrə icra edilmişdir"*).

Hesabat dövrünə dair tapşırıqla bağlı məlumatlar daxil edilsə də, müvafiq təsdiqləyici sənədlərin sistemə yerləşdirilməməsi; təqdim edilən sənədlərin tapşırığın mahiyyətinə tam uyğun olmaması; aidiyyəti əsas icraçı qurumlar tərəfindən müəyyən işlərin başa çatdırılmaması və s. səbəblərdən **58 (34,8%)** tapşırıqın icra vəziyyəti *"Qismən icra edilmişdir"* və *"Cari dövr üzrə qismən icra edilmişdir"* statusunda qiymətləndirilmişdir.



Ümumilikdə, hesabat dövründə Binəqədi Rayon İcra Hakimiyyətinin həm əsas icraçı, həm digər icraçı qismində müəyyən olunduğu Azərbaycan Respublikası Prezidentinin imzaladığı fərman və sərəncamların, təsdiq edilmiş dövlət proqramlarının, milli fəaliyyət planlarının və digər tapşırıqların icra vəziyyətinin dinamikası müsbətdir. Bununla yanaşı, cari dövrdə qismən icra olunmuş və icra edilməmiş tapşırıqların tam icrası istiqamətində zəruri tədbirlərin həyatan keçirilməsi nəzarətdə saxlanılır.